TARİX VƏ SİYASİ ELMLƏR

UOT 342.34
https://doi.org/10.30546/25194011.2026.15.03.4072

DÖVLƏTİN İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNİN TƏMİNATI MƏSƏLƏLƏRİ

Xalid NİYAZOV*

Daxil olub: 28 Aprel 2025 | Qəbul edilib: 5 May 2025 | Onlayn nəşr edilib: 18 İyun 2026
Received: 28 April 2025 | Accepted: 5 May 2025 | Published online: 18 June 2026

Açar sözlər: *informasiya siyasəti, informasiya təhlükəsizliyi, qlobal internet, təhlükəsizlik konsepsiyası, informasiya məkanı*

Giriş

Müasir qlobal transformasiyalar dövründə informasiya resursları dövlətin siyasi, iqtisadi və təhlükəsizlik potensialının əsas elementlərindən birinə çevrilmişdir. İnformasiya texnologiyalarının sürətli inkişafı və qlobal kommunikasiya şəbəkələrinin genişlənməsi dövlətlərin informasiya məkanının strukturunu köklü şəkildə dəyişdirmiş, eyni zamanda yeni təhlükə və risklərin meydana çıxmasına səbəb olmuşdur. Bu şəraitdə informasiya təhlükəsizliyi problemi yalnız texniki və ya texnoloji məsələ kimi deyil, dövlət suverenliyi, milli maraqlar və ictimai sabitliklə bağlı strateji siyasi məsələ kimi aktuallaşır.

İnformasiya məkanında rəqabət və qarşıdurma elementlərinin artması dövlətləri informasiya siyasətini yeni geosiyasi reallıqlar fonunda yenidən nəzərdən keçirməyə məcbur edir. Qlobal internet infrastrukturu, rəqəmsal kommunikasiya sistemləri və verilənlər bazalarının genişlənməsi dövlətlərin informasiya suverenliyi məsələsini milli təhlükəsizlik siyasətinin mühüm istiqamətlərindən birinə çevirmişdir.

Azərbaycan Respublikasında da informasiya təhlükəsizliyinin təmin olunması dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Bu istiqamətdə qəbul edilmiş normativ-hüquqi aktlar, strateji sənədlər və institusional mexanizmlər dövlətin informasiya məkanının qorunmasına, informasiya ehtiyatlarının təhlükəsizliyinə və milli maraqların müdafiəsinə yönəlmiş kompleks tədbirlər sistemini formalaşdırır.

Məqalənin məqsədi dövlətin informasiya təhlükəsizliyinin təmin edilməsi problemlərinin siyasi, hüquqi və institusional aspektlərdə təhlil edilməsi, informasiya məkanının qorunmasının dövlət təhlükəsizlik sistemindəki rolunun müəyyənləşdirilməsi və bu sahədə siyasi mexanizmlərin optimallaşdırılması istiqamətlərinin araşdırılmasından ibarətdir.

1. Dövlətin informasiya təhlükəsizliyi

Son illər ölkənin qanunverici və icra hakimiyyəti orqanları, siyasi rəhbərlik, elm adamları və mütəxəssis-praktiklər tərəfindən informasiya təhlükəsizliyinin təmin edilməsi problemləri Azərbaycan dövlətçiliyinin, demokratiyanın hazırkı vəziyyəti və inkişaf perspektivləri, həmçinin cəmiyyətin və fərdin maraqlarının qorunmasına xidmət edən etibarlı təminatlardan biri kimi qəbul edilir. Bu problemlərin ictimai-siyasi refleksiyası, əsasən, yeni bir dünya nizamının formalaşması ilə əlaqədar olan müasir siyasi proseslərin dinamikası, Azərbaycan dövlətinin modernləşməsi (o cümlədən infor-

* *siyasi elmlər doktoru, dosent, Bakı Dövlət Universiteti*
e-mail: xalid-555@mail.ru
ORCID: 0000-0002-2712-7410.

masiya sferasında) prosesində baş verən böhran hadisələri fonunda Azərbaycanın qlobal siyasi arenada rolunun və yerinin dəyişməsinin obyektiv prosesləri ilə müəyyən edilir.

Dövlətin informasiya təşkilinin islahatları ilə birbaşa əlaqədar olan informasiya təhlükəsizliyinin təmin edilməsi məsələləri müxtəlif səviyyəli dövlət və ictimai xadimlərin siyasi bəyanatlarında, ictimai hərəkatlar və siyasi təşkilatların, eləcə də onların liderlərinin konseptual görüşlərində öz prioritet təcəssümünü tapır.

Müasir alim və mütəxəssislər tərəfindən "təhlükəsizlik" anlayışı müxtəlif prizmalardan nəzərdən keçirilir. Bununla belə, ən çox təsadüf edilən yanaşma, təhlükəsizliyin "cəmiyyətin və onun komponentlərinin sosial sistemin immanent bir xassəsinə çevrilmiş daxili və xarici təhdidlərdən qorunma vəziyyəti" kimi səciyyələndirilməsidir. Belə bir yanaşma Azərbaycan Respublikasının "Milli təhlükəsizlik haqqında" Qanununun 1-ci maddəsində təsbit edilmişdir: "Azərbaycan Respublikasının milli təhlükəsizliyi – dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli maraqlarının, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunmasının təmin edilməsidir" (1).

Müasir siyasət elmi təhlükəsizliyi insanların mövcudluğuna təhdid və təhlükə yaradan faktor və şərtlərin aşkar edilib aradan qaldırılması kontekstində nəzərdən keçirir. Təhlükəsizlik dedikdə, istisnasız olaraq, bütün mövcud fəaliyyət sahələrində insanların potensial təhlükələrdən etibarlı şəkildə qorunması nəzərdə tutulur.

Bəzi ekspertlər təhlükəsizliyi dövlətin, cəmiyyətin və fərdin ölkə daxilində və xaricində həyati maraqlarının qorunmasına zəmanət sistemi kimi təqdim edirlər. O, özünü ən müxtəlif səviyyələrdə ifadə edə bilər: dünya birliyi, bölgə, ayrıca bir dövlət, sosial birlik və şəxsiyyət. Bu və ya digər obyektin təhlükəsizliyindən bəhs edərkən, həmin obyektin həyati maraqlarının xarici və daxili təhdidlərdən qorunması nəzərdə tutulur. Həmin məntiqdən çıxış etməklə "informasiya təhlükəsizliyi" anlayışının digər bir definisiyası ilə tanış olmaq mümkündür: "Azərbaycan Respublikasının informasiya sahəsində milli təhlükəsizliyinin təmin olunması dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasına, habelə informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsidir" (2).

Müasir dövrdə ölkələr arasındakı siyasi-diplomatik, sosio-mədəni, hərbi-texniki və iqtisadi münasibətlərin arxitekturası informasiya meydançasında əməkdaşlıq və qarşıdurmanı beynəlxalq münasibətlərin cari situasiyasına çevirməkdədir. İnformasiya münasibətləri, eləcə də informasiya ehtiyatlarının formalaşması və istifadəsi sahəsindəki problemlər informasiya düşərgəsində qeyri-bərabər vəziyyətdə olan müxtəlif dövlətlərin siyasi və iqtisadi qarşıdurması səbəbindən kəskinləşir.

Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi fərdin, cəmiyyətin və dövlətin balanslaşdırılmış maraqlarının məcmusu ilə müəyyən edilən informasiya sahəsindəki milli maraqlarının qorunmasını nəzərdə tutur.

İnformasiya təhlükəsizliyi – vəziyyətinə və inkişaf perspektivlərinə xarici və daxili amillərin birbaşa təsiri olan mürəkkəb sistemli, çoxsəviyyəli bir hadisədir. Bu amillərdən ən əhəmiyyətliləri aşağıdakılardır:

- ✓ dünyadakı siyasi vəziyyət;
- ✓ potensial xarici və daxili təhdidlərin mövcudluğu;
- ✓ ölkənin informasiya-kommunikasiya inkişafının vəziyyəti və səviyyəsi;
- ✓ dövlətin daxili siyasi vəziyyəti.

Dövlətin informasiya təhlükəsizliyinin mühüm bir tərəfi onun təhlükəsizlik vəziyyətinə nail olmaqdan, yəni real və potensial təhdidlərə, habelə ölkənin demoqrafik və iqtisadi vəziyyətinə uyğun mühəndis-texniki gücün və informasiya xidmətinin yaradılması ilə qorunub saxlanılmasından ibarətdir.

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında informasiya sahəsində ölkənin milli təhlükəsizliyinə təhdidlərin artması faktı vurğulanır və həmin cəhdlərin dəf edilməsi istiqamətində kompleks vəzifələrin adı çəkilir: "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasına, habelə informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsindən ibarətdir.

Dövlətin informasiya sahəsində milli təhlükəsizliyinin təmin olunması üçün ölkədə informasiyanın, həmçinin dövlət informasiya ehtiyatlarının müdafiəsi sahəsində milli sistem və informasiya infrastrukturu inkişaf etdirilir və möhkəmləndirilir. Dövlət orqanları və vəzifəli şəxslər tərəfindən qərarların qəbul edilməsinin informasiya təminatının həyata keçirilməsi məqsədilə obyektiv və mühüm məlumatlar toplanılır" (3).

2. Qlobal internet seqmentinin dövlətin informasiya təhlükəsizliyinə təsiri

İnformasiya məkanının və informasiya təhlükəsizliyinin qarşılıqlı əlaqə şəraitində qorunmasına müxtəlif amillərin təsirinin müxtəlifliyi və qeyri-müəyyənliyi obyektiv və subyektiv xarakterli amillər qrupunu fərqləndirməyə imkan verir. Obyektiv amillər dövlətin informasiya siyasətinin formalaşması və həyata keçirilməsi subyektlərinə təsir edən daxili və xarici parametrlərin çoxsəviyyəli sistemini (qlobal, regional və milli-dövlət səviyyələrində) təşkil edir.

Müasir şəraitdə informasiya məkanının qorunmasının informasiya təhlükəsizliyinə təsirini şərtləndirən ən əhəmiyyətli obyektiv geosiyasi amillərə dövlətlərin, bölgələrin və bütövlükdə dünyanın vəziyyətini və inkişafını müəyyən edən geosiyasi parametrlər (şərait, mənbələr, imkanlar) aid edilə bilər.

Dövlətin geosiyasi parametrləri "informasiya məkanının qorunması – informasiya təhlükəsizliyi" dixotomiyasında həlledicidir, çünki məhz bu tandem yeni dünya nizamının formalaşması şəraitində dövlətin informasiya məkanını qorumaq və müvafiq olaraq özünün informasiya təhlükəsizliyini təmin etmək xüsusiyyət və imkanlarını müəyyənləşdirir. İnformasiya siyasətini formalaşdırmağa başlayan və ya ona düzəlişlər edən hər bir dövlət geosiyasi amillərin və onların doğurduğu təhdidlərin təsirini nəzərə almalıdır.

Obyektiv amillərə iqlim şəraiti, ölkədəki demoqrafik vəziyyət və dövlətin dünya birliyindəki yerini obyektiv müəyyənləşdirən bir sıra digər parametrləri aid etmək mümkündür. Buna görə də dövlətin "fərqli prinsiplərinin" təhlili və dövlətin informasiya sisteminin onlara uyğunluğu informasiya məkanının qorunmasının informasiya təhlükəsizliyinə təsiri üçün vacib şərtdir.

Konkret halda söhbət, ilk növbədə, dünyadakı və ölkədəki siyasi vəziyyətə mənfi təsir göstərən, müəyyən bir dövlətin informasiya təhlükəsizliyinə təhlükə və təhdidlərin vəziyyətini müəyyənləşdirən konkret dövlətlərin, siyasi qüvvələrin və müxtəlif təşkilatların (o cümlədən ekstremist və terrorçu təşkilatların) siyasi fəaliyyətindən və praktik hərəkətlərindən gedir. Bundan əlavə, informasiya məkanını qorumaq və informasiya təhlükəsizliyini təmin etmək vəzifələrini həyata keçirən həmin dövlətin informasiya siyasəti subyektlərinin (dövlət orqanları, informasiya təşkilatı strukturları, habelə onun həyati fəaliyyətini və inkişafını təmin edən sistemlər) fəaliyyəti də subyektiv amillərə aiddir. Bu vəziyyətdə subyektiv amillərin təsiri, siyasət subyektlərinin informasiya məkanının qorunmasının xüsusiyyətləri, məzmunu və nəticələri ilə vasitəçilik edərək dövlətin informasiya təhlükəsizliyinə təsiri prosesindəki şüurlu fəaliyyətinin nəticəsini nəzərdə tutur.

Nəzərə alsaq ki, üçüncü minilliyin başlanğıcında informasiya təhlükəsizliyi öz əhəmiyyətinə görə milli təhlükəsizlik sistemində ön sırada qərar tutmuşdur, bu sahədə vahid dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi prioritet əhəmiyyət kəsb edir. Hüquqi dövlətdə istənilən siyasət qanuna söykəndiyinə görə hansı hüquqi əsasların yaradılmalı olduğunu müəyyənləşdirmək çox vacibdir. Hələlik qeyd etmək olar ki, bu sahədə ictimai münasibətlərin inkişafı hüququn inkişafını bir xeyli qabaqlayır.

Bu gün dövlət orqanlarında informasiya təhlükəsizliyi anlayışının və quruluşunun müəyyənləşdirilməsində iki tendensiya müşahidə edilir. Humanitar istiqamətin nümayəndələri informasiya təhlükəsizliyini yalnız "sirr institutu" ilə əlaqələndirirlər. Güc strukturlarının nümayəndələri isə informasiya təhlükəsizliyi sferasını informasiya sahəsindəki demək olar ki, bütün məsələlərə və münasibətlərə aid etməyi təklif edirlər.

Cəmiyyətin və dövlətin informasiya təhlükəsizliyi onların qorunma səviyyəsi, eyni zamanda həyati fəaliyyətin əsas sferalarının (iqtisadiyyat, elm, texnosfer, idarəetmə sahəsi, hərbi işlər, ictimai şüur və s.) həm tətbiqi, həm də informasiya hasilatı səviyyəsində ölkənin maraqlarına təhdid yaradan,

sabitliyi pozan, dağıdıcı informasiya təsirlərinə qarşı dayanıqlılığı ilə xarakterizə olunur. İnformasiya təhlükəsizliyinin səviyyəsi onun bu cür təsirləri zərərsizləşdirmək qabiliyyəti ilə müəyyən edilir.

İnformasiya təhlükəsizliyinin subyektləri onun təmin edilməsi ilə məşğul olan orqan və strukturlardır. Subyekt qismində respublika və regional icra, qanunverici, məhkəmə hakimiyyəti, habelə yerli özünüidarəetmə orqanları çıxış edə bilərlər. Digər elmi-texniki nailiyyətlər kimi, yeni informasiya texnologiyalarının da inkişafı və cəmiyyətin ən müxtəlif sferalarında tətbiqi yalnız rahatlığı təmin etmir, paralel olaraq müxtəlif təhlükələrin xəbərçisi kimi də çıxış edir. Bu gün elmi-texniki tərəqqinin nailiyyətləri ilə şərtlənən bir sıra informasiya-texniki təhlükələri göstərmək mümkündür.

Qlobal internetin Azərbaycan seqmentinin qorunmasının ölkənin informasiya təhlükəsizliyinin təmin edilməsinə siyasi təsir mexanizminin təhlili göstərir ki, onun əsas komponentlərinin işlənib hazırlanması və həyata keçirilməsi ümumdövlət miqyasında elə bir vacib vəzifədir ki, onun həllindən dövlət orqanları sisteminin yalnız informasiya təşkili deyil, bütövlükdə fəaliyyəti asılıdır.

Bu məsələdə informasiya-təşkilat işinin inkişaf prosesini idarə etmək üçün effektiv və təsirli sistemin yaradılması xüsusi yer tutur. Belə ki, məhz informasiya strukturunun formalaşması prosesinin idarə edilməsi informasiya-təşkilatlanma prosesinin vəziyyətini və istiqamətini əvvəlcədən müəyyənləşdirən, habelə dövlətin informasiya təhlükəsizliyinin təmin edilməsinin effektivliyinə birbaşa təsir göstərən bir fəaliyyətdir. Bu isə idarəetmə sisteminin informasiya-təşkilatlanma prosesində ən həssas həlqə olması ilə şərtlənir. Belə bir sistemin çatışmazlıqlarını hər hansı bir ciddi maddi, maliyyə yaxud digər mənbələrlə kompensasiya etmək mümkünsüzdür. Üstəlik, Azərbaycan dövlətinin informasiya sferasında həyata keçirdiyi dəyişikliklərin iki onilliyi əhatə edən mərhələsi yalnız dövlətin informasiya-təşkilatlanma ilə bağlı ehtiyaclarının əsasını təşkil edən informasiya ehtiyatları ilə əlaqəli problemləri daha da kəskinləşdirdi.

3. Təhlükəsizliyin siyasi-hüquqi legitimləşməsi

Məsələlərə daha konseptual, müasir inkişaf çağırışları kontekstindən baxış, eləcə də Azərbaycandakı siyasi və iqtisadi vəziyyət ölkə rəhbərliyi qarşısında informasiya-təşkilatlanma fəaliyyətinin yeni istiqamətlərinin hazırlanması, planlaşdırılması və həyata keçirilməsi ilə bağlı innovativ yanaşmaların tətbiqi zərurəti məsələsini qaldırır. Aktual vəzifə dövlət vəsaitlərinə qənaət və səmərəsiz xərclərin sıfırlanması şəraitində ölkənin informasiya məkanının qorunmasını təmin etməkdir. Bütün hakimiyyət qolları və səviyyələri, eləcə də geniş ictimaiyyət tərəfindən informasiya məkanının qorunmasının əsas məsələlərində siyasi dəstəyə nail olmaq da eyni dərəcədə vacibdir.

Beləliklə, informasiya təhlükəsizliyinin təmin edilməsi prosesində informasiya məkanının qorunmasına siyasi təsir mexanizminin optimallaşdırılması bütün səviyyələrdə hakimiyyət orqanlarından informasiya təhlükəsizliyinin təmin edilməsinin ümumdövlət səviyyəsində ən mühüm prioritet xarakteri almasına şəraitin yaradılmasını tələb edir.

İnformasiya təşkilatlanmasının optimallaşdırılması bu sahədə Azərbaycan dövlətinin də fəallığının artırılmasının obyektiv zərurətini vurğulayır. Bu zaman onun perspektiv inkişafını təmin edəcək şərtlərə və hər şeydən əvvəl ölkənin informasiya təşkilatlanmasının «gözləmə» vəziyyətindən çıxarılmasına riayət edilməlidir. Ölkənin dövlət hakimiyyəti orqanlarının informasiya təhlükəsizliyi sahəsində səlahiyyətlərin həyata keçirilməsi istiqamətindəki fəaliyyəti maksimum səmərəli olmaqla yanaşı, həm də rasional olmalıdır. «Səmərəlilik» dedikdə, informasiya təhlükəsizliyi ilə bağlı vəzifələrin həyata keçirilmə səviyyəsi başa düşülməlidir. Kifayət qədər təsirli və perspektivli qərarlara əsaslanan hərəkətlər isə rasional sayıla bilər.

İnformasiya məkanının qorunması vəzifələrini həyata keçirmək üçün dövlət orqanlarının fəaliyyətində siyasi mexanizmin optimallaşdırılması təşkilati strukturun fəaliyyətinin elmi şəkildə əsaslandırılmış məqsəd, prinsip və vəzifələrinin formalaşdırılmasını və həyata keçirilməsini əhatə edir. Bununla belə, qeyd etmək vacibdir ki, optimallaşdırmaya (ən yaxşı nəticələr əldə etmək üçün idarəetmə təsirləri) ilk növbədə "məqsəd – vasitə – nəticə" sxemində uyğunsuzluğa yol verilən fəaliyyət sferaları (idarəetmə səviyyələri, strukturlar, sistem elementləri) məruz qalmalıdır.

Azərbaycan Respublikasında informasiya məkanının qorunması vəzifələrinin həyata keçirilməsi üçün siyasi mexanizmin optimallaşdırılması bu sahədəki elmi tədqiqatların nəticələrinə əsasən döv-

lət orqanlarının fəaliyyətinin tənzimlənməsini və nizamlanmasını əhatə etməli, ən əsası isə ölkənin informasiya təhlükəsizliyinin təmin edilməsi maraqları naminə optimal həllərin hazırlanması üçün elmi əsaslı bir alqoritmi ehtiva etməlidir. İnformasiya təhlükəsizliyi və dövlət informasiya təhlükəsizliyi sistemi sahəsindəki səlahiyyətlər ölkə Konstitusiyası (4), "Milli təhlükəsizlik haqqında" (5), "İnformasiya əldə etmək haqqında" (6), "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" (7), "Məlumat azadlığı haqqında" (8) Azərbaycan Respublikasının qanunları və digər normativ-hüquqi aktlar ilə müəyyən edilir.

Hazırda ölkədə informasiya-təşkilatlanmanın idarə olunması problemlərinin hərtərəfli həllinə cəhd edilir. Fərdin, cəmiyyətin və dövlətin ehtiyac və perspektivlərini əks etdirən vahid dəyərlər və dünyagörüşü mühitinin formalaşdırılması dövlətin informasiya təşkilatlanmasının gələcək inkişafı üçün prinsipial əhəmiyyət kəsb edir.

Siyasi mexanizmin optimallaşdırılması yolu ilə hərəkətin əsas və ilkin şərti vahid ümummilli dövlət ideologiyasının hazırlanmasından ibarətdir.

Formalaşmış dövlət ideologiyasının əsas müddəalarının istiqamətindən və ictimai dəyərindən, ölkə rəhbərliyinin siyasətinin konseptual əsaslarından asılı olaraq, informasiya məkanının qorunması, informasiya təhlükəsizliyinin təmin edilməsi, eləcə də daxili və xarici siyasi vəziyyətin inkişafı prosesində optimallaşdırılması üçün yeni bir siyasi mexanizm modelinin yaradılması məqsədilə fəaliyyətin sonrakı mərhələləri də mövcuddur.

İnformasiya məkanının qorunmasının informasiya təhlükəsizliyinin təmin edilməsinə təsirinin siyasi mexanizminin optimallaşdırılmasının növbəti ən vacib istiqaməti bu sahədə siyasət subyektlərinin fəaliyyətinin elmi metodologiyasının hazırlanması və tətbiqidir. Söhbət dövlətin informasiya sferasının idarəetmə sisteminin dəyişdirilməsi və bu müstəvidə informasiya-təşkilatlanmanın inkişafının strateji planlaşdırılmasının həyata keçirilməsi üçün elmi əsaslı istiqamətlərin müəyyənləşdirilməsindən gedir. Müasir dövrdə Azərbaycanda informasiya məkanının qorunması vəzifələrini həyata keçirmək məqsədilə dövlət orqanlarının fəaliyyətinin optimallaşdırılması, həmçinin ölkənin informasiya təhlükəsizliyinin və informasiya ehtiyatlarının səmərəliliyinin təmin edilməsi işi elmi metodologiya əsasında həyata keçirilir. Dünya təcrübəsi göstərir ki, informasiya təhlükəsizliyinin təmin edilməsi üçün rasional strategiya xarici və daxili informasiya təhdidlərinin xarakterini, dövlətin informasiya təhlükəsizliyini və real iqtisadi imkanları təmin etmək prioritetlərini nəzərə alan uzunmüddətli planlara əsaslanmalıdır.

Çoxprofilli məlumat şəbəkəsi, Dövlət Rabitə şəbəkəsi, dövlət orqanlarının internet portalları, elektron arxivlər, məlumat bazaları və bu kimi dövlət quruluşunun mürəkkəb və həyati elementləri yalnız mövcud problemlərə diqqət yetirərək normal fəaliyyət göstərə bilməz. Onların inkişafı daha geniş məsələləri ehtiva edir.

Buna görə də Azərbaycandakı informasiya məkanının qorunması zərurəti yalnız mövcud imkanlardan deyil, həm də dövlətin informasiya təhlükəsizliyinin təmin edilməsinin perspektiv ehtiyaclarından irəli gəlməlidir. Əlavə olaraq, dövlətin informasiya-təşkilatlanmasının effektiv fəaliyyəti bu sahəyə aid məsələlər ətrafında razılaşdırılmış qərarların qəbulu və icrası üçün dəqiq tənzimlənmiş bir sistemin mövcudluğunu nəzərdə tutur. Əks təqdirdə, informasiya siyasəti düzgün proqnozlaşdırma və hərtərəfli əsaslandırma olmadan dar bir dairə tərəfindən hazırlana və yalnız mövcud siyasi-iqtisadi vəziyyətin çətinlikləri ilə məhdudlaşa bilər ki, bu da mövcud problemləri kəskinləşdirərək gələcəkdə ciddi siyasi, iqtisadi və sosial xətalara yol aça bilər.

2000-ci ildən başlayaraq bu istiqamətdə mühüm irəliləyişlər müşahidə olunmaqdadır və hazırda informasiyanın mühafizəsi ilə informasiya təhlükəsizliyi sahəsində planlaşdırma sistemli və perspektivli xarakter almaqdadır. Bu prosesə dövlət başçısının ölkənin informasiya məkanının inkişafı ilə bağlı proqram və strateji istiqamətlərin hazırlanmasını nəzərdə tutan konseptual mövqeyi ciddi dəstək nümayiş etdirir.

2003-cü il fevralın 17-də "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiyanın (2003–2012-ci illər) təsdiq edilməsi haqqında" (10), 2017-ci il fevralın 22-də "Azərbaycan Respublikasının Rəqəmsal Ticarət Qovşağı kimi mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqın-

da” (11), 2025-ci il yanvarın 16-da “Azərbaycan Respublikasında rəqəmsal inkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında” (12) Azərbaycan Respublikası Prezidentinin sərəncamları imzalanmışdır.

2025-ci il martın 19-da isə Prezidentin fərmanı ilə “Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün Süni İntellekt Strategiyası” təsdiq edilmişdir. Dövlətin və cəmiyyətin inkişafında əhəmiyyətli irəliləyişlərin əldə olunmasına yönəlmiş bu sənədlərdə, xüsusilə aşağıdakı məsələlər nəzərdə tutulmuşdur: məlumatların idarə edilməsində müasir arxitektura yanaşmalarının tətbiqi, “elektron hökumət”dən (e-Gov) “rəqəmsal hökumət”ə (GovTech) keçid və bu kimi digər mühüm addımlar. Yuxarıda qeyd olunan sənədlər müvafiq icra hakimiyyəti orqanları tərəfindən hazırlanmışdır. Bu sahədə toplanmış təcrübə onu deməyə əsas verir ki, informasiya məkanının qorunması məsələləri üzrə qərarların hazırlanması və qəbulu mərhələlərinin hər birində aşağıdakılar zəruridir:

- ✓ məqsədlərin dəqiq formulə edilməsi, vəzifələrin əsaslandırılması, həmçinin göstərilən məqsədlərə çatmaq üçün xərclərin prioritet qaydada maliyyələşdirilməsi şərti ilə onların həlli üçün vaxt mərhələlərinin müəyyənləşdirilməsi;
- ✓ resurslara qənaətin təmin edilməsinə yönəlmiş eyni tipli vəzifələrin yerinə yetirilməsində təkrarlanma və paralelliyin qarşısının alınmasını, eləcə də vəsaitlərdən qeyri-rasional istifadə olunmasını istisna edən problemlərin kompleks həlli;
- ✓ informasiya təhlükəsizliyi problemlərinin həllində hakimiyyətin bütün qollarının, mütəxəssislərin, həmçinin müstəqil ekspertlərin fəal iştirakı. Bu, ölkənin təhlükəsizliyinə zərər vurmadan daha açıq və əlçatan bir informasiya mühitinin yaradılmasını tələb edir.

Dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin koordinasiyası özü-özlüyündə məqsəd deyil; o, qarşıya qoyulmuş vəzifələrin təminatlı şəkildə yerinə yetirilməsi naminə ölkənin informasiya məkanının qorunması problemlərinin kompleks həllinə yönəlmişdir. İnformasiya əsri özü ilə qanunverici və icraedici hakimiyyətin həll etməli olduğu çoxsaylı yeni məsələlər gətirir. Bunlara onlayn təhlükəsizlik və şəxsiyyətin identifikasiyası, məxfilik və məlumatların qorunması, kiberməkanda yurisdiksiya və elektron kommersiyanın vergiyə cəlb edilməsi, kommunikasiya münasibətlərinin hüquqi aspektləri və kibercinayətlərə görə məsuliyyət kimi məsələlər daxildir.

4. Təhlükəsizlik strategiyası üzrə konseptual nəticə

Aparılan təhlil göstərir ki, təhlükəsizliyin təmin edilməsi statik texniki tədbirlər toplusu deyil, dinamik, çoxsəviyyəli və davamlı idarəetmə prosesidir. Təhlükəsizlik strategiyasının konseptual əsası aktivlər üzərində nəzarət uğrunda daimi qarşıdurmanın mövcudluğunu, risklərin qaçılmazlığını və qeyri-müəyyənlik şəraitində qərar qəbuletmənin zəruriliyini qəbul etməyə söykənir. Bu baxımdan təhlükəsizlik strategiyası reaktiv deyil, qabaqlayıcı (preventiv) xarakter daşımalı və potensial təhdidlərin reallaşmasından əvvəl formalaşdırılmalıdır.

Konseptual yanaşmanın mərkəzində təhdidlərin düzgün proqnozlaşdırılması dayanır. Təhdidlər və təhdid subyekti modellərinin hazırlanması təhlükəsizlik siyasətinin rasional əsasını təşkil edir və resursların optimal bölüşdürülməsinə imkan yaradır (13, s. 10). Burada «təhdid subyekti» anlayışının geniş mənada – yalnız qəsdən zərər yetirən aktorları deyil, həmçinin insan səhvlərini, təşkilati boşluqları və texniki savadsızlığı da əhatə edən kateqoriya kimi dərk edilməsi xüsusi əhəmiyyət kəsb edir. Məhz bu yanaşma təhlükəsizlik risklərinin real miqyasda qiymətləndirilməsinə şərait yaradır.

Təhlükəsizlik strategiyasının effektivliyi onun institusional və etik ölçülərindən birbaşa asılıdır. Təhlükəsizlik siyasətinə riayət edilməsi yalnız normativ tələblərlə deyil, eyni zamanda korporativ mədəniyyət, şəxsi məsuliyyət və təşkilatdaxili etimad mühiti ilə şərtlənir.

Nəhayət, təhlükəsizlik strategiyası fasiləsiz monitorinq və risklərin idarə olunması mexanizmləri ilə tamamlanmalıdır. Texniki və təşkilati müdafiə tədbirlərinin zamanla zəifləməsi təhlükəsizlik səviyyəsinin hiss olunmadan aşağı düşməsinə gətirib çıxara bilər (14, s. 39). Buna görə də monitorinq sistemi həm informativ, həm resurs baxımından səmərəli, həm də mühafizə olunan obyektin xüsusiyyətlərinə adekvat olmalıdır. Yalnız bu halda təhlükəsizlik strategiyası mülkiyyətçinin maraqlarını real və davamlı şəkildə qoruyan, dəyişən təhdid mühitinə uyğunlaşa bilən funksional idarəetmə modeli kimi çıxış edə bilər.

Cəmiyyətdə informasiya təhlükəsizliyinin rolu və əhəmiyyəti durmadan artır. İnformatika sahəsindəki geriləmə gələcəkdə ölkənin kompüter şəbəkələrinin, bütövlükdə informasiya və idarəetmə infrastrukturunun zəifləməsinə səbəb ola bilər. İnformasiya məkanının qorunması dövlətin modernləşdirilməsinin elə bir mühüm vəzifəsinə çevrilməlidir ki, o, daxili siyasi proseslərin məzmununu və dinamikasını, dövlətin özünütəsdiq xüsusiyyətlərini, həmçinin dəyişən dünya birliyində onun yerini və rolunu qabaqcadan şərtləndirir.

İnformasiya məkanının qorunması probleminin aktuallaşması və onun informasiya təhlükəsizliyinə təsiri bilavasitə dövlət təhlükəsizliyinə yönəlmiş real və potensial təhdidlər, eləcə də çağırışlarla bağlıdır. Son onillikdə bu təhdidlərin səviyyəsi və miqyası dəfələrlə artaraq son dərəcə təhlükəli xarakter almışdır.

Nəticə

Aparılan təhlil göstərir ki, informasiya təhlükəsizliyi müasir dövlətin milli təhlükəsizlik sistemində strateji əhəmiyyətə malik kompleks və çoxsəviyyəli bir fenomendir. Qlobal informasiya məkanının sürətlə genişlənməsi və rəqəmsal texnologiyaların inkişafı dövlətlərin informasiya siyasətinin yeni institusional və hüquqi mexanizmlər əsasında formalaşdırılmasını zəruri edir. İnformasiya təhlükəsizliyinin təmin edilməsi yalnız texniki müdafiə tədbirləri ilə məhdudlaşa bilməz. Bu proses siyasi qərarların qəbulu, hüquqi tənzimləmə, elmi tədqiqatlar və institusional koordinasiya əsasında həyata keçirilən sistemli idarəetmə fəaliyyətidir. Dövlətin informasiya məkanının qorunması milli maraqların müdafiəsi, ictimai sabitliyin təmin olunması və rəqəmsal inkişafın təhlükəsiz əsaslar üzərində qurulması üçün mühüm şərtdir.

Azərbaycan Respublikasında informasiya təhlükəsizliyi sahəsində qəbul olunmuş konsepsiya və strategiyalar bu istiqamətdə vahid dövlət siyasətinin formalaşdırılmasına xidmət edir. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı, "rəqəmsal hökumət" modelinə keçid və süni intellekt strategiyasının həyata keçirilməsi dövlətin informasiya suverenliyinin möhkəmləndirilməsi üçün yeni imkanlar yaradır.

Beləliklə, informasiya təhlükəsizliyinin effektiv təmin olunması üçün dövlətin informasiya siyasətinin elmi əsaslarla formalaşdırılması, hüquqi mexanizmlərin təkmilləşdirilməsi və idarəetmə sisteminin optimallaşdırılması mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətdə həyata keçirilən tədbirlər Azərbaycanın informasiya məkanının qorunmasına və milli təhlükəsizlik sisteminin möhkəmləndirilməsinə xidmət edən mühüm strateji amil kimi çıxış edir.

ƏDƏBİYYAT

1. Milli Təhlükəsizlik Haqqında Azərbaycan Respublikasının Qanunu. (https://e-qanun.az/framework/5455)
2. "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. (https://e-qanun.az/framework/13373).
3. Azərbaycan Respublikasının Konstitusiyası. (https://e-qanun.az/framework/897).
4. "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu. (https://e-qanun.az/framework/11142)
5. "Məlumat, informasiyalaşdırma və məlumatların qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu. (https://e-qanun.az/framework/35124)
6. "Məlumat azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu (https://eqanun.az/framework/ 3420)
7. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu. (https://e-qanun.az/framework/3525).
8. "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. (https://e-qanun.az/framework/1969).
9. "Azərbaycan Respublikasının Rəqəmsal Ticarət Qovşağı kimi mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası

Prezidentinin 2017-ci il 22 fevral tarixli 1255 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. (https://e-qanun. az/framework/39256).
10. 2025-ci il yanvarın 16-da "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı. (https://president.az/az/articles/view/67937)
11. "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. (https://e-qanun.az/frame work/59218)
12. Нисневич Ю. Информация и власть. Москва: Мысль, 2000, 175 с.
13. Общая теория национальной безопасности: Учебник. Москва: РАГС, 2005, 172 с.

Резюме

Халид Ниязов

Вопросы обеспечения государственной информационной политики

В статье анализируются проблемы обеспечения информационной безопасности государства в контексте современных политических и правовых реалий. Автор отмечает возрастающую роль информационной безопасности в системе национальной безопасности, подчеркивая, что формирование глобального информационного пространства усилило как сотрудничество, так и конкуренцию между государствами в сфере информационных отношений. В этих условиях защита информационных ресурсов, безопасность информационной инфраструктуры и эффективная организация государственной информационной политики становятся важнейшими гарантиями государственного суверенитета и национальных интересов.

Наряду с положительными изменениями, происходящими в процессе осуществления реформ в большинстве сфер деятельности государства, важно подчеркнуть, что развитие его информационной организации объективно переживает достаточно сложный период. В результате информационная сфера, ее источники, а также безопасность соответствующих институтов в целом стремятся развиваться в ногу с развитием других институтов современного азербайджанского общества.

В исследовании рассматриваются этимологические и теоретические основы понятия безопасности, а также подчеркивается, что информационная безопасность представляет собой многоуровневую систему, охватывающую государство, общество и личность. Автор рассматривает обеспечение информационной безопасности не только как совокупность технических защитных мер, но и как комплексный управленческий процесс, включающий политическое принятие решений, правовое регулирование, институциональную координацию и стратегическое планирование.

Особое внимание уделяется влиянию глобального сегмента Интернета на информационную безопасность государства. Отмечается, что цифровизация и широкое внедрение информационных технологий наряду с новыми возможностями создают и новые угрозы, включая киберугрозы, информационные манипуляции и элементы информационной войны. В связи с этим защита национального информационного пространства становится важным направлением государственной политики в сфере национальной безопасности.

В статье также анализируется государственная политика Азербайджанской Республики в области информационной безопасности и стратегические документы, направленные на укрепление цифрового развития и информационного суверенитета. Автор приходит к выводу, что эффективное обеспечение информационной безопасности возможно лишь на основе формирования научно обоснованной государственной информационной политики и оптимизации механизмов управления в данной сфере.

Ключевые слова: *информационная политика, информационная безопасность, глобальный интернет, концепция безопасности, информационное пространство*

Summary

Khalid Niyazov

Issues of Ensuring the State İnformation Policy

The article analyzes the issues of ensuring state information security in the context of contemporary political and legal realities. The author emphasizes the growing role of information security within the national security system, noting that the formation of the global information environment has intensified both cooperation and competition among states in the sphere of information relations. Under these conditions, the protection of information resources, the security of information infrastructure, and the effective organization of state information policy become essential guarantees of state sovereignty and national interests.

Alongside the emergence of positive changes in the implementation of reforms across most areas of state activity, it is important to emphasize that the development of the state's information organization is objectively going through a

difficult period. As a result, the information sphere-its resources and the overall security of the relevant institutions-strives to keep pace with the development of other institutions of modern Azerbaijani society.

The study examines the etymological and theoretical foundations of the concept of security and highlights that information security represents a multi-level system encompassing the state, society, and the individual. The author considers the provision of information security not merely as a set of technical protective measures but as a comprehensive management process that includes political decision-making, legal regulation, institutional coordination, and strategic planning.

Particular attention is paid to the influence of the global Internet segment on state information security. It is noted that digitalization and the widespread use of information technologies create not only new opportunities but also new threats, including cyber threats, information manipulation, and elements of information warfare. Therefore, the protection of the national information space becomes a key direction of state policy in the field of national security.

The article also analyzes the state policy of the Republic of Azerbaijan in the field of information security and strategic documents aimed at strengthening digital development and information sovereignty. The author concludes that the effective provision of information security is possible only through the formation of a scientifically grounded state information policy and the optimization of governance mechanisms in this sphere.

Keywords: *information policy, information security, global Internet, security concept, information space*

Rəyçi: *s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızı*